# KAFKAS ÜLKELERİ VE TÜRKİYE ARASINDAKİ İKTİSADİ İLİŞKİLERİN BÖLGE TURİZMİNE ETKİSİ

**Dr.Vüsale Memmedzade**
Azerbaijan Tourism and Management University
vusalememmedova@mail.ru

**Özet**

Azerbaycan ile Kafkas ülkeleri arasındaki ilişkiler önemli bir geçmişe sahiptir. Türkiye'nin ve Azerbaycan'ın Kafkasya'daki konumları bu ülkelerle sıkı ilişkiler ve müttefiklik kurmaya ihtiyacı olan Gürcistan'a yarar sağlamaktadır. Türkiye ve Azerbaycan'ın girişimleriyle hem bu iki ülke için hem de bölge için önemli olan bir kısım projeler hayata geçirilmektedir. Bu projelerden birisi de Bakü-Tiflis-Kars demir yolunun yapılmasıdır. Bu konu uzun yıllar iki ülke arasında uluslararası maliye teşkilatlarında sadece değerlendirilmekteydi. Bu önemli proje pratiğe dönüştürülmüyordu. Türkiye, Gürcistan ve Azerbaycan hükümetlerinin çabaları sonucu bu konu şimdiki durumuna getirilebilmiştir. Günümüzde Kafkasya dünya iktisadi haritasında çok önemli bir yer tutmaktadır. Ayrıca Kafkasya bu bölgenin dışındaki alanların gelişimini etkileyen bir konumdadır. Bölgenin Karadeniz vasıtasıyla okyanusa çıkmak ve Avrupa'ya yakın olmak ve Hazar Denizi vasıtasıyla da kuzeye ve batıya çıkışları mevcuttur. Azerbaycan'a bağlı olarak Türkiye ile Gürcistan arasında bütün alanlarda güvenlik açısından yeteri düzeyde ilişkiler mevcuttur. Hatta Erivan bu meselelerde Tiflis'i çok ileri gitmekle suçlamaktadır. Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev ve Gürcistan Cumhuriyeti Cumhurbaşkanı Georgi Marqvelaşvili Türkiye ile olan mevcut ilişkileri müspet bulmaktadırlar.

Kafkas ülkeleri ile Türkiye arasındaki iktisadi ilişkilerin bu doğrultudaki gelişmesi bölge turizmine de olumlu katkılar yaptığı belirtilebilir. Üç ülke arasındaki iktisadi bağlar, bu topraklarda turizm açısından elverişli ortam yaratmaktadır ki, iş adamları bu alanlara yatırımlar yapmaktadırlar. Bu doğrultuda, oteller yapılmakta dinlenme merkezleri oluşturulmakta ve böylece köylerdeki turizmde gelişmektedir. Böylece inşa edilen turizm tesisleri sadece iş adamlarını değil, yerli halklarında dikkatini çekmekte ve bu bölgelere turizm amaçlı hizmetlerden faydalanmak için gitmektedirler.

Bu çalışmada, Kafkasyada yaşanan gelişmelerin Türkiye-Azerbaycan ve Gürcistan münasebetlerine ve turizmine olan etkisi konusunda genel değerlendirmeler yapılmaktadır. Ulaşılmak istenen amaç, Türkiye-Azerbaycan ve Gürcistan münasebetlerini, turizmini ve ticaretini daha üst düzeye çıkarabilmek için sonuçlar elde edebilmektir.

**Anahtar Kelimeler:** Kafkas Ülkeleri, Türkiye, Azerbaycan, İktisadi İlişkiler,Turizm

## THE EFFECTS on REGIONAL TOURISM of ECONOMIC RELATIONS BETWEEN CAUCASUS COUNTRIES and TURKEY

**Abstract**

There is a long history of relations between Azerbaijan and the Caucasus countries. Turkey and Azerbaijan's position in the Caucasus is beneficial to Georgia who need to build strong relationships and alliances with these countries. On the initiative of the two countries Turkey and Azerbaijan are carried out a number of projects important for the region as a whole. The construction of the Baku-Tbilisi-Kars railway is one of them. Over the years, this issue between the two countries, international financial institutions was simply discussed. This important project, in fact, was not performed. As a result of efforts by Turkey, Georgia and Azerbaijan governments, this subject could be like current situation. Today, the position of Caucasus is very important in the world economic map. Also Caucasia is in a position that affects the development of the area outside this region. Exit to the ocean via the Black Sea of the region and being close to Europe and also outputs to the north and to the west by the Caspian Sea is available. In terms of security, The level of relations between Turkey and Georgia is enough in relation to Azerbaijan. Even Yerevan accuses Tbilisi in going forward in this matter.

Azerbaijani President Ilham Aliyev and Georgian President Georgi Margvelashvili positively evaluate the current state of relations with Turkey. The development of economic relations between Turkey and the Caucasus countries has positive impacts on tourism in the region. The three countries will create favorable conditions for economic bridge between the areas of tourism, business leaders are putting the capital. The economic ties between the three countries is to create an enabling environment in terms of tourism in this lands that businesses are investing in these areas. In this respect, hotels, recreation centers are established and so that tourism in the villages is developed. Thus, built tourism facilities will draw not only businessmen but also attention of local people and they will go to take advantage of the services for tourism in the region.

In this study, The general assessments about the effect of developments in the Caucasus on Turkey-Azerbaijan and Georgia relations and tourism has been made. The main goal is to be obtained the results in order to bring to a higher level tourism, trade and relations among Turkey, Azerbaijan and Georgia.

**Keywords:** Caucasus Countries, Turkey, Azerbaijan, Economic Relations, Tourism

## 1. GİRİŞ

Əgər bir neçə il əvvəllər turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növlərindən biri hesab edilirdisə, artıq indi bu sahə daha qlobal məna kəsb etməyə başlayıb. Belə ki, hazırda turizm əsasən iqtisadi inkişaf, zəngin büdcə mənbəyi hesab olunur. Məsələn, turizmin dünyanın gəlirli sahəsinə çevrilən ölkələrindən Türkiyə ötən il turizmdən 35 milyard dollar qazanmışdı. İspaniya, Fransa kimi inkişaf etmiş Avropa ölkələrində də turizmdən gələn gəlir ölkə büdcəsinin təqribən 8-10 faizini formalaşdırır. Hətta inkişafdan geridə qalan Afrika ölkələrində də turizmin inkişafı prioritet sayılır. Xüsusən savannalara, milli qoruqlara təşkil edilən turizm adrenalin həvəsli və cibizəngin turistlər üçün cəlbedici bir məkana çevrilib.

## 2. TÜRKİYE-AZERBAYCAN VE KAFKAS ÜLKELERİ ARASINDAKİ TURİZMİN ÖNEMİ

Azərbaycan-Türkiyə münasibətlərinin tarixi böyükdür. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasına şərait yaradan amillərdir. Münasibətlərin yüksək səviyyəsi tarixin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olmalarına əsas vermişdir. (1,s.7)

Avrasiya materikində geosiyasi və geoiqtisadi mənzərəyə təsir etmiş layihənin -- Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin reallaşdırılması münasibətlərin daha da möhkəmlənməsinə və dərinləşməsinə şərait yaratmışdır. Qeyd etmək yerinə düşər ki, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin xarici neft şirkətlərinin konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının ilk əsas təzahürü idi. (2,s.4)

Türkiyənin Qafqazda mövqeyi əsasən Azərbaycanın və Azərbaycanla müttəfiqliyə, sıx münasibətlər qurmağa ehtiyacı olan Gürcüstanın hesabına təmin olunur. Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Onlardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsidir. Uzun illər ərzində bu məsələ iki ölkə arasında, beynəlxalq maliyyə qurumlarında, sadəcə, müzakirə olunurdu. Bu önəmli layihə faktik olaraq, icra edilmirdi. Türkiyə, Gürcüstan və Azərbaycan rəhbərliklərinin iradəsi nəticəsində bu məsələnin həllinə nail olunub.

TAP, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri, Şimal-Cənub, Şərq Qərbmagistral avtomobil yolları, yeni hava limanları, geniş turizm infrastrukturu ilə

bağlı təbliğatın aparılması Azərbaycanın artan tranzit və turizm imkanlarından xarici tərəfdaşların faydalanması işinə öz müsbət töhfəsini verəcəkdir.

Bu gün Qafqazın dünyanın iqtisadi xəritədə tutuduğu mövqe çox önəmlidir. Daha geniş mənada bu regiondan kənarda yerləşən, onun inkişafına təsirə görə olan mövqedir. Burada Qara dəniz vasitəsilə dünya okeanına çıxmaq Avropaya yaxın yerləşmək, Xəzər dənizi vasitəsilə şimala və qərbə çıxışları vardır. Azərbaycanla yanaşı Türkiyə ilə Gürcüstan arasında bütün sahələrdə, o cümlədən təhlükəsizlik aspektində kifayət qədər geniş əlaqələr mövcuddur. Hətta rəsmi İrəvan Tbilisini bu məsələdə çox qabağa getməkdə ittiham edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Respublikasının Prezidenti Georgi Marqvelaşvili Türkiyə ilə münasibətlərin mövcud vəziyyətini müsbət dəyərləndirirlər.

Qeyd edək ki, Qafqaz ölkələri ilə Türkiyə arasında iqtisadi münasibətlərin inkişaf bölgə turizminə müsbət təsirlər göstərir. Üç ölkə arasında iqtisadi körpü ərazilərdə turizm üçün əlverişli şərait yaradır ki, iş adamları burada kapitallar qoyurlar. Otellər, istirahət mərkəzləri ilə yanaşı kənd turizmi də iqtisadi əlaqələr nəticəsində inkişafda olur. Çünki icra olunan böyük layihələrin tikintisi tək iş adamlarını deyil, yerli insanların marağın cəlb edir ki, onlar bu işlərlər tanış olmaq üçün turistik xidmətlərdən istifadə edib ərazilərə gəlirlər.

Türkiyə və Azərbaycan rəsmilərinin imzaladıqları Türkiyə və Azərbaycan Respublikaları arasında müxtəlif sahələrdə əməkdaşlıq protokolları bu məqsədlərə nail olunmasını nəzərdə tuturdu. Tərəflər 12 mart 1991-ci il tarixində Türkiyə Cümhuriyyəti ilə Sovet İttifaqı arasında imzalanan dostluq, mehriban qonşuluq və əməkdaşlıq müqaviləsinin əhəmiyyətini ayrıca vurğulamışlar (3s.89).

Həmin ərəfədə – 16 mart 1991-ci il tarixində Türkiyə Cumhuriyəti hökuməti və Azərbaycan Respublikası hökuməti arasında turizm sahəsində də əməkdaşlıq protokolu imzalanmışdır. 10 maddəlik bu protokolda (5 il müddətinə keçərli olan) qeyd olunur ki, tərəflər iki ölkə vətəndaşlarına tarixi, mədəni və turistik dəyərlərini daha yaxşı bir şəkildə tanıtmaq məqsədilə iki ölkə arasındakı turistik mübadilələrin daha da artırılmasına və iki ölkənin rəsmi turizm qurumları arasında əməkdaşlığın inkişafına hər baxımdan yardım ediləcəkdir.

## 3. TÜRKİYE-AZERBAYCAN VE BÖLGE ÜLKELERİNİN TURİZM İŞBİRLİĞİNİN ÖNEMİ

Azərbaycan və Türkiyənin turizm sahəsində də geniş əməkdaşlıq imkanları mövcuddur. Belə ki, hər iki ölkə zəngin və günəşli iqlim qurşağında yerləşir, rəngarəng təbiətə malikdir. Hər iki ölkənin eyni zamanda həm çimərlik, həm də dağ turizmi imkanları var. Əsas fərq turizm infrastrukturunun və tanıtım imkanlarının iki ölkə arasında müxtəlif inkişaf səviyyəsinə malik olmasıdır. Bu istiqamətlərdə Türkiyə geniş məsafə qət etdiyi halda, Azərbaycan üçün bu nisbətən yeni prioritetdir. (4)

Azərbaycan və Türkiyə arasında inkişaf perspektivli digər sahə turizm sahəsidir. Turizm sektorunda Azərbaycan-Türkiyə arasında əməkdaşlığın perespektivləri çox güclüdür.Azərbaycanda turizm üçün əlverişli resursların mövcudluğu ölkədə bu sahənin inkişaf etdirilməsi üçün zəmin yaradır.Lakin Azərbaycanda tələb olunan kapitalın olmaması müasir dövrdə bu sahənin inkişaf etdirilməsi üçün imkan yaratmır.Bundan başqa respublikada bu sahədə beynəlxalq təcrübə də kifayət qədər deyildir.

Türkiyə isə əksinə bu sahədə böyük təcrübəyə malikdir və dünyanın ən aparıcı turizm ölkələrindən sayılır.Bunları nəzərə alaraq bu sahəyə türk sahibkarların

yatırımlarının və iş təcrübəsinin cəlb olunması yaxın gələcəkdə bu sektorun Azərbaycanda geniş inkişaf etdirilməsinə imkan verə bilər.

Azərbaycan-Gürcüstan-Türkiyə arasında iqitsadi əlaqələrdə turizmin rolu eyni zamanda türkdilli dövlətləri də bu üçlüklə birgə əməkdaşlıq etməsinə şərait yaradıb. Türk xalqları ilə genişlənən əlaqələrdə turizm sahəsində əməkdaşıq da mühüm yer tutur. Bu baximdan BMT-nin «Mədəniyyətin və sənətin dirçəldilməsi» proqramı diqqəti cəlb edir. Proqramda «İpək yolu» ölkələrində turizm əlaqələrinin genişlənməsi məsələsi də qarşıya qoyulmuşdur. «İpək yolu» üzərəindəki ölkələrdə turizmin inkişafı ilə bağlı 1991-ci il Xivə bəyannaməsi, 1994-cü il Səmərqənd bəyannaməsi, 2002-ci il oktyabrın 27-də isə Buxara bəyannaməsi imzalanmışdır. Bu bəyannamələrdən əsas məqsəd «İpək yolu» boyunca turizmin inkişafına yardım göstərmək olmuşdur.(5)

Bu istiqamətdə atılan addımlardan biri də Ümumdünya Turizm Təşkilatının 2004-cü ilin əvvəlində Səmərqənddə ofisinin açılması və onun «İpək yolu üzərində turizim» layihəsini irəli sürməsi olmuşdur.Bu layihəyə 20-dən çox ölkə, o cümlədən Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkiyə kimi türkdilli ölkələr daxil olmuşdur.

Hər iki ölkənin vətəndaşlarının bir-birilərinə turizm səyhətləri üçün hər bir imkan veriləcəkdir. Qrşılıqlı olaraq turistik vizalar verilməsi problemləri aradan qaldırılacaqdır. Turizm fəaliyyətlərinə, reklama şərait yaradılacaqdır. Viza, sərhəd, gömrük qaydaları sadələşdiriləcəkdir. Ekoloji təmizlik, çeşidli turizm mərkəzlərinin inşaatını, kadr hazırlığı, xarici turizm sahəsində ortaq şirkətlərin qurulmasını və turizmə bağlı digər problemləri nəzərdə tutaraq qarşılıqlı əməkdaşlıq inkişaf etdirilməlidir. Əlaqədar qurumlar hər iki ölkədə müntəzəm toplantılar keçirməlidirlər

Azərbayan Respublikasında turizmin inkişafı ilə əlaqədar ölkəmizə səfər edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə vizalarının rəsmiləşdirilməsi işinin daha yüksək səviyyədə təşkili məqsədi ilə “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemində (İAMAS) mövcud proqram təminatının təkmilləşdirilməsi, bu sahədə müfəssəl statistik təhlillərin aparılması; Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəli kləri və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi arasında məlumat mübadiləsini təkmilləşdirmək üçün “Azerspace-1” telekommunikasiya peyki vasitəsilə səfirlik və konsulluqların peyk rabitəsi ilə təchiz edilməsi üzrə ardıcıl tədbirlər görülür. Eyni zamanda, ölkəmizə səfər edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə vizaların rəsmiləşdirilməsi işinin operativliyini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, Xarici İşlər Nazirliyi və diplomatik nümayəndəliklərin əməkdaşlarının ştat sayının artırılması sahəsində müvafiq işlər görülməkdədir.(6)

## 4. AZERBAYCAN TURİZMİNİN KOMŞU ÜLKELER AÇISINDAN GENEL DEĞERLENDİRİLMESİ

Azərbaycanın turizm üçün lazım olan sərvətləri-təbii gözəlliyi, meşələri, dağları, çimərlikləri, qış turizmi üçün imkanları, mineral bulaqları, sağlamlıq obyektləri, Naftalan nefti, min-bir dərdə dəva mineral palçıqları saymaqla bitmir. Gəlin görək biz bu potensialdan nə dərəcə də istifadə edirik. Bildiyimiz kimi Azərbaycanın xidmət sektorunda qiymətlər bahadır. Və hesab edirəm ki, Azərbaycanın turizmdə irəli gedə bilməməsinin ən əsas səbəblərindən biri də məhz budur. İndi Azərbaycanı digər qonşu ölkələrlə müqayisə edək: Hesablamalara əsasən, Azərbaycanda 1 nəfərin bir həftə ərzində normal istirahəti üçün 800-1000 manat vəsait tələb olunur. Ancaq hər il təqribən 30 milyon turist qəbul edən Türkiyədə 1 nəfərin 1 həftəlik istirahəti üçün 400 dollar

tələb olunur. Şimali Kipir Türk Cümhuriyyətində isə bu 300 avronu keçmir. Birləşmiş Ərəb Əmirliyində 1 həftəlik istirahət 1000 dollardır. Türkiyənin Antalya, Bodrum, Quşadası kimi məşhur turizm məkanlarında bu qiymət 400-700 dollar civarında dəyişir. Gürcüstanda da qiymətlər Azərbaycana baxanda çox ucuzdur belə ki, Batumda bir nəfərin 1 həhtə ərzində 3 ulduzlu oteldə dincəlməsi 300-350 manatdır. Buraya yol xərcləri və gündəlik yeməklər daxildir. Yəqin buna görədir ki, "2013-cü ilin göstəricilərinə əsasən Azərbaycanlılar Gürcüstanda 300 milyon dollar xərcləyiblər". Bu sözləri Gürcüstan Turizm Administrasiyasının rəhbəri Georgiya Siqua deyib. Onun sözlərinə görə, Gürcüstan'a 2013-cü ildə 1 milyon Azərbaycanlı gəlib ki, onlarında 300 mini sırf turizm məqsədi ilə səfər edib.

**RESUME:** Tourism is now one of the world's largest industries and a major source of income for many countries. The sector is also regarded as a main instrument for regional development, as it stimulates new economic activities. Azerbaijan, a unique land in the Caucasus, has appeared not so long ago on the tourism map of world. The country with its favorable geographical location, rich natural landscape and numerous objects of historical and cultural heritage is a good place for the development of tourism. This filed is among the government's priorities for the development of its non-oil sector. Azerbaijan makes everything possible to use its natural advantages to develop the tourism sector of the country, implementing various projects and programs for attracting tourists to the Land of Fire. These efforts gave fruit and in a short period of time the country was able to raise the quality level of its tourism sector. Today, Azerbaijan is a favorite destination for over 2.5 million tourists visiting the country every year.

## ƏDƏBİYYAT

1. Azərbaycan ilə Türkiyənin turizm sahəsində əməkdaşlığı üçün böyük imkanlar var: [Türkiyənin Mədəniyyət və Turizm naziri Atilla Koçun TUSİAB cəmiyyətində olması haqqında] //Azərbaycan.- 2006.- 13 sentyabr
2. Canbaxışlı, N. Eyni mədəniyyəti yaşadan coğrafiya: [Türkiyənin Mədəniyyət və Turizm NazirliyininXalq Musiqisi Xorunun dirijoru Məhəmməd Özbək ilə söhbət] //Həftə içi.- 2007.- 3-5 noyabr.
3. Saray M. Azerbaycan türkleri tarihi. İstanbul, 1993, 154 s,
4. http://www.bbm.az/az/iqtisadiyyat/azerbaycan/1732-nabucco-layihsi-uezr-ilk-mueqavil-2011-ci-ild-azrbaycanlaimzalanacaq
5. http://az.strategiya.az/old/?m=xeber&id=13397
6. http://az.trend.az/azerbaijan/politics/2379989.html.